QARABAĞ AZƏRBAYCANDIR!

SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 084 (6284) 17 may 2021-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# "Xarıbülbül" musiqi festivalı Şuşa torpağından dünyaya səs saldı!



Bax 2

## İlham Əliyev: "Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu"

## Birinci vitse-prezident Mehriban Əliyeva Qarabağdan növbəti paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Qarabağdan növbəti paylaşım edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident video və foto paylaşaraq "Doğma Qarabağın rəngləri və səsləri" sözlərini yazıb.

## Ümummilli Liderin 98-ci ildönümü münasibətilə ağacəkmə aksiyası keçirilib

Bax 13



Mayın 9-də Yeni Azərbaycan Partiyasının və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü...

## Bəxtiyar İslamov: "Xarıbülbül" festivalı Azərbaycanın mədəni-intellektual potensialının sərgilənməsi idi



Bax 14

"Hər bir azərbaycanlı kimi bu festivalı mən də çox böyük fəxrlə izlədim. Hesab edirəm ki, biz buna sadəcə incəsənət festivalı kimi baxmalı...

## Sərhədçilərimizi öldürən sərhəd pozucusu saxlanıldı



Dövlət Sərhəd Xidmətinin əməkdaşlarını güllələyən şəxs saxlanılıb. Baş Prokurorluğun Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, mayın 15-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə"" sərhəd dəstəsinin...

Bax 14

**DİQQƏT: Gecə bu qidaları yeyəndə bütün bədən təmizlənir!**



Bax 16

**"Xarıbülbül" festivalı Qarabağın tarixi simasının, Şuşanın mədəniyyət mərkəzi statusunun bərpasını təcəssüm etdirir**



Bax 13

**Messi "Mançester Siti"dən illik 25 milyon avro istəyir!**



Bax 16

# “Xarıbülbül” musiqi festivalı Şuşa torpağından dünyaya səs saldı!

## *İlham Əliyev: “Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu”*

***Yolumuzu həsrətlə gözləyən, dərddən torpağı cadar olmuş Şuşamız 29 ildən sonra yenə doğmalarını, qonaqlarını qarşıladı. “Qafqazın sənət məbədi”, “Azərbaycan musiqisinin beşiyi” və “Şərqin konservatoriyası” adlandırılan Şuşamız böyük sevgi ilə hər kəsə qucaq açdı. Hər dəfə qəlbimizin dərinliklərində böyük həsrətlə baş qaldıran hissləri bu gün yaşaya biləcəyimiz Şuşamızın hər yerindən xalq ruhunu əks etdirən musiqi sədaları eşidildi.***

İllərdir bayramlarımızı Şuşada, Cıdır düzündə qeyd edəcəyimizi arzuladığımız məkanda əbədi məşəlimizi yandırdıq. Toy-büsata, bayramlara susamış ocağımızda Novruz tonqalı yandırılır, Şuşa məscidində azan səsi eşidilir, bayram namazı qılınır. Bundan böyük xoşbəxtlik ola bilərmi? Şuşa yeni bir qaynar dövrünü yaşayır. Azərbaycan Prezidenti İlham Əliyevin “Şuşa şəhərində istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması ilə bağlı tədbirlər haqqında”, “Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında”, “Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında” sərəncamları artıq Şuşada yeni bir həyatın başlanmasından xəbər verir. Bu müjdə hər tərəfə yayılır və bütün dünyamıza işıq salır. Şuşaya gedən yol aydın və işıqlı görünür.

### “44 GÜNÜN HƏR BİR GÜNÜ QƏHRƏMANLIQ DASTANI İDİ”

Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa “Xarıbülbül” musiqi festivalına ev sahibliyi etdi. Təbiətin gözəl bir çağında hər tərəfin yaşıl, al rəngə boyandığı vaxtda Heydər Əliyev Fondunun təşkilatçılığı ilə yenidən Şuşada Cıdır düzündə təşkil olunan “Xarıbülbül” musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunmuşdu. Bildiyimiz kimi, 2021-ci ilin yanvarında Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın mədəniyyət naziri ilə görüşündə Şuşada “Xarıbülbül” festivalının dirçəldilməsinin zəruriliyini xatırladaraq, bu folklor festivalının ənənəsinin yaxın vaxtlarda yenidən yaradılmasının zəruriliyini qeyd etmişdir. Bu gün artıq musiqi sədaları Şuşa torpağından dünyaya səs saldı. Bunu dünya gördü və səsimizi eşitdi. Dünya gördü ki, Azərbaycan xalqı tarixi torpaqlarına qayıdıb. Festivalın açılışında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev “Biz bu günü 30 il səbirsizliklə gözləmişik”, deyə bildirib: “30 il Vətən həsrəti ilə yaşamışıq. 30 il ədalətsizliklə barışmalı olurduq, amma barışmırdıq və hər dəfə deyirdik ki, bu vəziyyətlə biz heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik”. 44 günlük Vətən müharibəsində qazanılmış Zəfər Azərbaycan tarixində qızıl hərflərlə həkk olundu. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Dövlət başçısı çıxışında “44 günlük müharibə Azərbaycanın tam Qələbəsi ilə nəticələndi”, deyərək Azərbaycanın tam Qələbə qazandığını diqqətə çatdırıb: “44 günlük müharibə bizim şanlı tariximizdir. 44 günün hər bir günü qəhrəmanlıq dastanı idi, hər bir gündə biz şəhidlər verirdik, qan tökürdük və irəliyə gedirdik. Hər gün biz irəliyə gedirdik. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Ancaq irəli gedirdik, şəhidlər verərək, qan tökərək, xalqımız birləşərək və biz birləşib bu Qələbəni şərtləndirdik”.





44 gün sürən hərbi əməliyyatlar nəticəsində Müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

### “ŞUŞANIN AZAD EDİLMƏSİ FAKTİKİ OLARAQ ERMƏNİSTAN ORDUSUNUN VƏ ERMƏNİSTAN DÖVLƏTİNİN ÇÖKMƏSİ DEMƏK İDİ”

“Şuşanın - alınmaz qalanın alınması ayrıca bir qəhrəmanlıq dastanıdır”, deyən Cənab Prezident vurğulayıb ki, Şuşada olan hər bir insan və artıq Şuşaya gələn Azərbaycan vətəndaşları görürlər ki, Şuşanı götürmək, işğaldan azad etmək böyük qəhrəmanlıq, şücaət, fədakarlıq tələb edirdi: “Bizim qəhrəman hərbçilərimiz bu sıldırım qayalara dırmaşaraq əlbəyaxa döyüşdə Şuşanı işğalçılardan azad etdi. Baxmayaraq ki, işğalçılar bizə qarşı tanklardan, toplardan atəş açırdılar. Biz Şuşa uğrunda gedən döyüşlərdə şəhidlər verdik. Ancaq bizi irəliyə aparan milli ruh bu Qələbəni təmin etdi. Şuşanın azad edilməsi faktiki olaraq Ermənistan ordusunun və Ermənistan dövlətinin çökməsi demək idi”. Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Ardı Səh. 3



# "Xarıbülbül" musiqi festivalı Şuşa torpağından dünyaya səs saldı!

## *İlham Əliyev: "Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu"*







**Əvvəli-Səh-2**

Artıq Azərbaycanın işğalda olan torpaqları azaddır və Qarabağ Azərbaycandır!!! Təbii ki, bu uğulu yolda necə-necə oğullarımız canlarından keçdi, şəhidlik zirvəsinə yüksəldilər. Onların qarşısında baş əyirik və Azərbaycan xalqı hər zaman onların xatirəsini yad edəcək. Belə oğulların keçdiyi yollar ərənlik məktəbi olaraq öyrəniləcəkdir. Uzun fasilədən sonra bu il ilk dəfə olaraq "Xarıbülbül" musiqi festivalı keçirildi. Bu festival şəhidlərimizin əziz xatirəsinə həsr olundu. "Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq", deyən Cənab Prezident vurğulayıb ki, bu qələbənin qazanılmasında xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı: "Bu, bizim hamımızın qələbəsidir".

zəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək", deyən dövlət başçısı builki festival Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə etdiyin bildirib: "Bugünkü festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış edəcəklər. Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna Mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan - Şuşadan, qədim torpağımızdan mesaj veririk. Ölkələr belə inkişaf etməlidir, ancaq çoxkon-






### "ANCAQ ÇOXKONFESSİYALI, ÇOXMİLLƏTLİ ÖLKƏLƏRDƏ, CƏMİYYƏTLƏRDƏ İNKİŞAF OLUR, BİRLİK OLUR, MİLLİ HƏMRƏYLİK OLUR, SÜLH OLUR"

İndi Şuşa şəhəri yenidən ənənələrini bərpa edərək yeni dövrünü yaşayır. Şuşada qeyd etdiymiz kimi, "Xarı bülbül" festivalı keçirildi. Şuşanın rəmzi hesab olunan Xarı bülbül gülü üzərinə qonmuş bülbülü xatırladır. Bülbülün bağrının altındakı gül al-qırmızı rəngə boyanıb. Tarix boyu Qarabağa qonaq gələnlər hər zaman Xarıbülbülü seyrə çıxıb. Qarabağda bu gülün şəninə konsertlər verilib, festivalar təşkil edilib. Həmin konsertlərdə xalqımızın böyük, korifey sənətkarları çıxış ediblər. Ötən əsrin 80-ci illərinin sonundan keçirilməyə başlanan beynəlxalq musiqi festivalı da, məhz Xarıbülbülün adı ilə ifadə olunub. "Xarıbülbül" Beynəlxalq Festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. Festival may ayında, Şuşada Xarıbülbülün çiçəklənmə dövründə keçirilib. Konsertlər Cıdır düzü meydançasında tikilmiş 7 məkanda keçirilmişdir. "Biz bu gö-fessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf olur, birlik olur, milli həmrəylik olur, sülh olur". Mayın 12-də "Xarıbülbül" musiqi festivalının ilk günündə ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı "Azərbaycan musiqisində multikulturalizm" mövzusunda təqdim edilməsi də təsadüfi deyildi.

*Ardı Səh. 4*

# "Xarıbülbül" musiqi festivalı Şuşa torpağından dünyaya səs saldı!

## *İlham Əliyev: "Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu"*











**Əvvəli-Səh-3**

Bu gün Azərbaycan tolerant, mehriban birgəyaşama mədəniyyəti baxımından artıq dünya üçün bir örnəkdir. Tarixən müxtəlif xalqların və dinlər arasında qarşılıqlı hörmətə və etimada əsaslanan səmimi dostluq və əməkdaşlıq münasibətlərinin ölkəmizdə mövcudluğu yüksək tolerantlıq ənənələrinin formalaşdığı dünyəvi, çoxmillətli və çoxkonfessiyalı dövlət kimi təqdim edir. Bu gün dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul edir və öyrənir. Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri birgə yaşayır və ölkəmizin uğurlu inkişafına töhfələrini verirlər. Ölkəmizdə bütün tarixi dini abidələr dövlət tərəfindən qorunur, eyni zamanda, dövlət vəsaiti hesabına bərpası təmin edilir. Əgər Azərbaycan ərazisində 2000-dən artıq məscid, 13 kilsə, 7 sinaqoq və digər ibadət yerləri fəaliyyətdədirsə, deməк bu artıq tolerant mühitin mövcudluğunu tam əsaslandırır. Ölkədə olan müxtəlif qurumlar hər bir millətə ruslara, molokanlara, yəhudilərə, tatlara, saxurlara, udilərə sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanların yaradıldığından xəbər vermiş olur.



### "GƏLƏN İL BİZ ŞUŞANIN 270 İLLİYİNİ QEYD EDƏCƏYİK"

Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır. Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etmişdir. Bu sərəncamla Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı da bərpa olunmuşdur. "Şuşa Azərbaycan xalqının milli sərvətidir", deyən Cənab Prezident diqqətə çatdırıb ki, bu yaxınlarda Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi bunu bir daha göstərir: "Şuşa qədim Azərbaycan şəhəridir. Gələn il biz Şuşanın 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və o vaxtdan işğal dövrünə qədər bu şəhərdə həmişə azərbaycanlılar yaşayıblar. Ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi. Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Türkiyə mediası Prezident İlham Əliyevin Şuşaya səfərini geniş işıqlandırıb










**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalı və mayın 13-də təşkil olunan festivalın qala-konserti, həmçinin dövlətimizin başçısının iştirak etdiyi digər tədbirlər, o cümlədən Şuşada yeni məscidin təməlinin qoyulması Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, Anadolu agentliyinin hazırladığı, türkdilli ictimaiyyətdə festivalın mahiyyəti barədə aydın təsəvvür yaradan "Azərbaycan Prezidenti İlham Əliyev Qarabağın simvol şəhərində duyğulu anlar yaşadı" sərlövhəli videomaterial Türkiyənin digər media orqanları tərəfindən də sürətlə yayılıb. Agentliyin səfərlə bağlı fərqli dillərdə yaydığı xəbərlərdə Azərbaycan dövlət başçısının mühüm mesajları əksini tapıb və informasiyalar orijinal fotolarla təqdim olunub.

























"Haber global", "TRT Haber", "TRT avaz", NTV telekanalları, İHA xəbər agentliyi, "Sabah", "Akşam", "Milliyyət", "Yeni şəfəq" və digər aparıcı qəzetlərin mövzu ilə bağlı yaydıqları materiallarda Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın füsunkar gözəlliyi, Qarabağın təbiətindən nadir görüntülər, festivalın əzəməti, şəhərdə aparılan quruculuq və abadlıq işləri informasiyalarda əksini tapıb.

Türkiyə mətbuatı 29 illik fasilədən sonra Şuşa şəhərindəki qədim məsciddə Ramazan bayramı namazının qılınmasını tarixi Zəfərin qalibiyyəti, mühüm əhəmiyyətli hadisə kimi dəyərləndirib.

# Qalib Liderin inkişaf və sabitlik diyarı Naxçıvana qürur səfəri

## *Bu səfər Şuşa işğalı günündən sonra Prezident İlham Əliyevin ata yurduna qalib və məğrur sərkərdə dönüşü idi*

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ümummilli liderimizin Naxçıvan Muxtar Respublikasına çox böyük geostrateji əhəmiyyətə malik bir məkan kimi xüsusi diqqət və qayğı ilə yanaşma siyasətini dönmədən davam etdirir. Bunu ölkə başçısının on yeddi illik siyasi rəhbərliyi dövründə on beş dəfə - demək olar ki, hər il müxtəlif vaxtlarda muxtar respublikaya səfər etməsi də aydın təsdiq edir. Prezident cənab İlham Əliyevin mayın 10-da - ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü günü Naxçıvana səfəri isə ata yurdunda övlad-varis hesabatının qürur yürüşünün təzahürüdür.***








Ölkə başçımızın ümummilli liderin tarixi zəfər sonrası ilk doğum gününü Naxçıvanda qeyd etməsi dahi şəxsiyyətin layiqli siyasi varisi kimi ata vəsiyyətinə ləyaqətlə əməl etmənin təkcə Qarabağı erməni işğalından qurtarmaqdan ibarət olmayıb bütöv Azərbaycan naminə Naxçıvanı da otuz illik blokadadan azad etmək olduğunu, Naxçıvanın da Qarabağ qədər əhəmiyyətli, əziz olduğunu təsdiqləməklə yanaşı, həm də Şuşa işğalı günündən sonra Ali Baş Komandanımızın ata yurduna qalib və məğrur sərkərdə dönüşü idi. Həmçinin, Ali Baş Komandanımızın Naxçıvana İkinci Vətən müharibəsində qazanılan tarixi zəfərdən sonra, ilk dəfə ulu öndərin doğum günündə səfər etməsi ərazi bütövlüyümüzün bərpa olunması başda olmaqla Azərbaycanın qazandığı bütün bugünkü uğurlara görə borclu olduğumuz dahi şəxsiyyəti - Heydər Əliyevi bəxş etmiş ata yurduna - qədim və ulu Naxçıvana minnətdarlıq duyğusu, mənəvi varislik borcundan doğan bir addım, ata yurdunda övlad-varis hesabatı, qalib sərkərdənin ulu öndərimizin ruhunu Qarabağlı-Naxçıvanlı - bütöv Azərbaycan müjdəsi ilə ata ocağında sevindirmək niyyətindən doğan qürur yürüşü idi. Cənab Prezident tarixi Zəfərdən sonra Ulu Öndərin birinci doğum günündə ənənəvi olaraq onun məzarını ziyarət edəndən sonra onun Vətəninə - Naxçıvana gəlməyi özünə mənəvi borc bildi: "İlk dəfə mayın 10-da Naxçıvandayam. Bu doğum günündə mütləq burada olmalıydım".



### Liderlik əzmini qoruyub saxlayan Naxçıvan

Səfər çərçivəsində Prezident İlham Əliyevin Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının təqdimatında iştirak etməsi blokada dövründə Naxçıvanın yeganə nəqliyyat əlaqəsinin hava yolları olduğunu, insanların gediş-gəliş üçün necə deyərlər, "havadan asılı qaldığı" illəri, bu gün isə istənilən hava şəraitində beynəlxalq aviareyslərin belə təhlükəsiz həyata keçirilməsi üçün müasir şəraitin yaradıldığını əyani şəkildə bir daha sərgilədi. Yeni uçuş-enmə zolağı inkişaf etmiş qədim diyarımızın yaxın gələcəkdə turistləri, beynəlxalq tədbir iştirakçılarını yüksək səviyyədə qarşılayıb yola salmağa imkan verəcək.

Həmçinin Prezident İlham Əliyev Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodromunun açılışında iştirak edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verib. Bildirilib ki, ərazidə Start Komanda, Təhlükəsizlik Baxış, Texniki Nəzarət Məntəqələri, aviasiya texnikalarının saxlanması üçün anqarlar yaradılıb.

*Ardı Səh. 7*

# Qalib Liderin inkişaf və sabitlik diyarı Naxçıvana qürur səfəri

## *Bu səfər Şuşa işğalı günündən sonra Prezident İlham Əliyevin ata yurduna qalib və məğrur sərkərdə dönüşü idi*

Əvvəli-Səh-6

Buradakı şərait bir daha təsdiqləyir ki, Silahlı Qüvvələrin idarə edilməsi sistemi kompleks şəkildə davam etdirilir və bu məsələdə Naxçıvan Muxtar Respublikasının müdafiəsi diqqət mərkəzində saxlanılır. Dövlətin muxtar respublikaya göstərdiyi güclü dəstək faktı Naxçıvanı özünü xarici təhdidlərdən tam müdafiə etmək iqtidarında olan bölgəyə çevirib. Təsadüfi deyil ki, 1992-ci ildə erməni silahlı birləşmələrinin işğal etdiyi Şərur rayonunun Günnüt kəndi 26 ildən sonra - 2018-ci ildə ordumuzun nəzarəti altına keçib. Əlahiddə Ümumqoşun Ordunun əks-həmləsi nəticəsində "Xunut" dağı və "Ağbulaq" yüksəkliyi, "Qızılqaya" dağı və "Mehridağ" işğaldan azad edilib, ümumilikdə 11 min hektara yaxın ərazi nəzarət altına alınıb. Bütün bunlar isə mətin ordumuzun qəhrəmanlığı sayəsində mümkün olub. Ölkə başçımız Azərbaycan xalçaçılıq sənəti tarixində özünəməxsus yeri və rolu olan Naxçıvan xalçaçılıq məktəbinin yaşadılması və inkişaf etdirilməsi, yun və təbii boyaq bitkilərinin tədarükü üşün yerli xammal ehtiyatından səmərəli istifadə etmək məqsədilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının, muxtar respublikanın yol-nəqliyyat kompleksinin müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində görülən tədbirlərin davamı kimi uzunluğu 50 kilometr olan Culfa-Ordubad magistral avtomobil yolunun, muxtar respublikada heyvandarlığın inkişafı məqsədilə yaradılan, ölkə üzrə ikinci Süni Mayalanma Mərkəzinin, 13 min 500 sakini beynəlxalq standartlara cavab verən təmiz içməli su ilə təmin edəcək "Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin açılışlarında iştirak edib.

### "Onlar bizim yumruğumuzu görüblər, bu yumruq yerindədir"

"Mənim sözüm yerindədir. Əgər onlar bu bəyanatlardan hansısa praktiki əməllərə keçsələr, dərhal məhv olunacaqlar. Heç kim onları müdafiə edə bilməz. Heç kimə də bel bağlamasınlar. Onlar uzun illər dırnaqarası "müzəffər və güclü" ordusu ilə öyünürdülər. Ermənistanda nə güc var, nə iradə var, nə hər hansı bir mənəvi haqq var ki, revanşist fikirlərlə yaşasın. Bu, onlar üçün özünəqəsddir". Bu fikirləri Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Azərbaycan Televiziyasına müsahibəsində Ermənistanda bəzi iqtidar və müxalifət qüvvələrinin Şuşanın qaytarılması ilə bağlı bəyanatlarına münasibət bildirərkən söyləyib.

Dövlətimizin başçısı sözünə davam edərək deyib: Biz hələ ki, bu bəyanatları izləyirik. Ermənistanda həm iqtidar, həm də müxalifət, demək olar ki, siyasətlə məşğul olan bütün ünsürlər Şuşanın qaytarılması ilə bağlı, Hadrutun qaytarılması ilə bağlı fikirlər səsləndirirlər. Biz hələ ki, təmkin göstəririk. Amma odla oynamasınlar. Onlar bizim yumruğumuzu görüblər. Bu yumruq yerindədir. Heç kim bizim qabağımızda dura bilməz". Prezident İlham Əliyev vurğulayıb ki, əgər biz zərrə qədər təhlükə görsək onları dərhal məhv edəcəyik: "Elə yerindəcə məhv edəcəyik. Onlar da bunu bilirlər. Gücümüz də var, iradəmiz də var, cəsarətimiz də var. Yumruq da yerindədir".





### "Zəngəzur dəhlizi açılmalıdır və açılacaq, heç kimin buna şübhəsi olmasın"

Zəngəzur dəhlizi açılmalıdır və açılacaq, 10 noyabr tarixli birgə Bəyanatında bu, təsbit edilib. Ondan sonra fəaliyyət göstərən Azərbaycan-Ermənistan-Rusiya Baş nazirlərinin müavinləri səviyyəsində işçi qrupunun keçirilmiş iclaslarında da artıq bu məsələ ilə bağlı çox ciddi addımlar atılır. Əminliklə deyə bilərəm ki, dəmir yolu dəhlizi açılacaq. Heç kimdə bu haqda şübhə olmasın",-deyən dövlətimizin başçısı deyib: "Bildiyiniz kimi, mən Horadiz-Ağbənd dəmir yolunun təməl daşını qoydum. Burada çatışmayan 15-16 kilometrlik hissə inşa ediləcəkdir, Ordubaddan Ermənistan sərhədinə qədər. Naxçıvan dəmir yolu fəaliyyət göstərir, indi həm sərnişin, həm yük daşımaları həyata keçirilir. Yəni, Azərbaycan ərazisində Horadiz-Ağbənd dəmir yolu tikiləndən sonra bütün infrastruktur yaradılacaqdır".



Prezident qeyd edib ki, Ermənistanın bütün dəmir yolları Rusiya dəmir yollarına məxsusdur. "Ona görə biz bu məsələni daha çox Rusiya tərəfi ilə müzakirə edirik. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq. Əminəm ki, bu, olacaqdır, məndə heç bir şübhə yoxdur. Bir daha demək istəyirəm ki, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək və əlindən gələni edəcək ki, bu layihənin həyata keçirilməsində heç bir problem olmasın", - deyə Prezident İlham Əliyev vurğulayıb.

### Naxçıvana səfəri yeni tarixi reallığın nəticələrinin davamlılığına hesablanmış uğurlu gedişdir

Bir sözlə, Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri bölgədə hərbi-siyasi yolla yaradılmış yeni tarixi reallığın nəticələrinin davamlılığına hesablanmış uğurlu gediş olmaqla, həm də dünyaya daha böyük ciddi mesajı oldu. Dövlətimizin başçısı hər kəsə dedi ki, ümummilli lider Naxçıvanı necə qoruyubsa, mən də elə qoruyacağam. Azərbaycan Televiziyasına müsahibəsində Naxçıvanın çətin günlərindən danışan dövlət başçısı bildirdi ki, Ulu öndərin qətiyyəti, cəsarəti, siyasi müdrikliyi, naxçıvanlıların fədakarlığı ermənilərin və AXC-Müsavat cütlüyünün planlarını alt-üst etmişdir və Naxçıvanı Heydər Əliyev qorumuşdur, necə ki, ondan sonra Azərbaycanı böyük bəlalardan qoruya bildi: "Bu gün burada olmağımın xüsusi rəmzi mənası var. Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq". Bu artıq dövlət başçısı tərəfindən Naxçıvana və naxçıvanlılara göstərilən diqqət, onların ölkəmizin inkişafındakı xidmətlərinin yüksək qiymətləndirilməsidir. Bir sözlə, dövlət başçısının Naxçıvana 10 may səfəri bir daha göstərdi ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində muxtar respublikanı daha xoş günlər gözləyir.

**RƏFİQƏ KAMALQIZI**

# Bölgələrin inkişafı dövlə

## Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva mayın 15-də Qəbələ rayonuna səfər ediblər.**

idi, uçmuşdu.

-Bəli, uçmuşdu. Yenidənqurma zamanı tikilinin 50 faizə yaxın kərpicləri, daşları bərpa olunmuşdur.

Prezident İlham Əliyev: Salam.

- Bizim əziz Prezidentimiz, xoş gəlmisiniz. Məryəm Ana Kilsəsinə xoş gəlmisiniz. Allah Sizi qorusun, Allah Azərbaycanı qorusun.

Prezident İlham Əliyev: Sağ olun, çox sağ olun.

-Həmçinin həyətyanı sahə abadlaşdırılmış, sahəsi hasarlanmış, bulaq və üç gölməçə yaradılmışdır.

Prezident İlham Əliyev: Bulaq haradadır? Burdadır?

-Bəli.

Prezident İlham Əliyev: Salam.





AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva xalqımızın ümummilli lideri Heydər Əliyevin Qəbələ şəhərində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Qəbələ rayonunda 20 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini rayon mərkəzindən və digər yaşayış məntəqələrindən ayıran, Bum-Tikanlı-Abrıx avtomobil yolunun 2-ci kilometrliyində Bum çayı üzərində yeni körpü və Bum qəsəbəsinə gedən 2 kilometrlik avtomobil yolu bərpadan sonra istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva tədbirdə iştirak ediblər. Dövlətimizin başçısına yeni körpünün və yolun texniki göstəriciləri barədə məlumat verildi.

Qeyd edək ki, Bum çayı üzərində yeni körpü və yol Qəbələ rayonunun yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq inşa edilib. Uzunluğu 310, eni 9 metr olan körpü sürücülərin və vətəndaşların rahat və təhlükəsiz hərəkətinin təmin edilməsində mühüm rol oynayır.

Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qəbələnin Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsində olublar. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma kilsədə görülən işlər barədə məlumat verildi:

-Müqəddəs Məryəm Ana kilsəsi 2019-cu ildə Heydər Əliyev Fondu tərəfindən bərpa olunmağa başlanmış və 2020-ci ilin noyabr ayında 44 günlük müharibə zamanı bərpa işləri başa çatdırılmışdır. Buyurun, ilkin vəziyyəti ilə tanış ola bilərsiniz.

Prezident İlham Əliyev: Bu vəziyyətdə idi?

- Bəli.

Prezident İlham Əliyev: Gümbəzi də yox





- Salam, xoş gəlmisiniz, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ olun.

-Kilsənin tavanı, döşəməsi dəyişdirilmişdir. Kilsənin aşağı hissəsi XII əsrdə tikilmişdir, Siz onların dağıntılarını da görə bilərsiniz. Biz onların bəzilərini bərpa etmişik. İkinci hissənin tikintisi isə 1898-ci ildə davam etdirilmişdir və bərpa olunmuşdur.

Prezident İlham Əliyev: Uçmuş vəziyyətdə idi.

-Çox pis vəziyyətdə idi. Bərpa zamanı işlər Afina memarlığına uyğun olaraq aparılmışdır. Həm daxili, həm xarici tərtibata heç bir xələl gətirilməmişdir. Biz çalışmışıq ki, o vaxt tikinti zamanı istifadə olunan inşaat materiallarından istifadə edək.

Prezident İlham Əliyev: Yəni o vaxt bu kərpiclərlə inşa edilmişdi?

-Bəli, 1898-ci ildə tikilmişdir. Biz bu kərpiclərin təqribən 50 faizini dəyişdirmişik, ancaq köhnə kərpiclərdən istifadə etmişik.

Prezident İlham Əliyev: Mənə Leyla danışmışdı ki, burada olarkən söhbət əsnasında bu kilsə ilə bağlı məsələ qaldırıldı. O da Bakıya gələn kimi dərhal bu məsələni qaldırdı və ondan sonra bərpa işlərinə start verilmişdir. Bildiyiniz kimi, İkinci Qarabağ müharibəsi dövründə bu kilsənin açılışı olmuşdur.

-Bəli, ayın 7-də açılışı oldu.

Prezident İlham Əliyev: Bəli, yenidən açılışı olmuşdur.

-Bizim müdrik Prezidentimiz, Leyla xanım tək Sizin qızınız deyil, o, bizim də qızımızdır, Udi qızıdır. Bəli, bir xahişimizlə bu kilsəni bizə hədiyyə etdi. Pandemiyaya, 44 günlük müharibəyə baxmayaraq, burada bərpa işləri bir gün də dayanmadı. Burada doqquz xalqın nümayəndələri çalışıblar. Çox sağ olun. Təşəkkürümüzü bildiririk.

Prezident İlham Əliyev: Udi xalqının çox böyük tarixi mirası var. İndi həm Qəbələ rayonu ərazisində və eyni zamanda, azad edilmiş torpaqlarda siz gedib ibadət edirsiniz - həm Xudavəngdə, həm Ağoğlanda. Orada udi xalqına məxsus olan digər mə-

# tin diqqət mərkəzindədir

## a və qızları Leyla Əliyeva Qəbələ rayonuna səfər ediblər

bədlər də var. Onların böyük hissəsi dağılmış, ya da ki, yarıdağılmış vəziyyətdədir. Ona görə, onları da bərpa edəcəyik. Siz o kilsələrə də gedəcəksiniz. Siz Xudavəngdə bir neçə dəfə olmusunuz.

-Olmuşuq. Biz Laçından, Ağoğlan kilsəsindən ayın 11-də gəlmişik. Cənab Prezident, yeddi dəfə səfərimiz olub.





Prezident İlham Əliyev: Çox yaxşı, bundan sonra da olacaq. Çünki bu, böyük bir tarixi irsdir, bizim mirasımızdır. Bu günlərdə Şuşada "Xarıbülbül" festivalında udi xalqının nümayəndələri çıxış etmişlər və orada sizdən olan nümayəndə də var idi. Bu da bir daha onu göstərir ki, Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır. Uzun fasilədən sonra Şuşada təşkil edilmiş "Xarıbülbül" festivalının ilk günündə Azərbaycanda yaşayan xalqların nümayəndələri səhnəyə çıxmış və öz mədəniyyətlərini nümayiş etdirmişlər. Eyni zamanda, biz hamımız birliyimizi nümayiş etdiririk və bu kilsənin bərpa edilməsi də bizim birliyimizi təcəssüm etdirir.

-Bəli, sağ olsun Heydər Əliyev Fondunun işçiləri. Sizə öz təşəkkürümüzü bildiririk. Çox gözəl bərpa işləri görüblər. Biz bayramınızı təbrik edirik.

Prezident İlham Əliyev: Sağ olun. Gedək baxaq.



-Cənab Prezident, burada bəzi daşlar XII əsrdən qaldığına görə....

Prezident İlham Əliyev: Qədim daşlardır.

-Bəli, qədim daşlardır. Biz Türyançaydan daşları tapdıq, onları kəsdik. Həmçinin kərpicləri. Çılçıraqlar, işıqlandırılma - hamısı qədim konsepsiyaya uyğun yaradılıb.

Prezident İlham Əliyev: Bəli, o stildə yenidən işlənib.

-Cənab Prezident, Müqəddəs Məryəm Ana kilsəsi Azərbaycanda ən böyük kafedral kilsədir. Alban kilsələrinin tərtibatı çox zaman çox geniş olmayıb.

Prezident İlham Əliyev: Bəli, sadə olub.

- Sadə olub. İkonalar olmayıb, çox sadə olub.

Prezident İlham Əliyev: Sovet vaxtında necə istifadə olunub?

- Bura kolxoz dövründə fındıq anbarı idi.

Prezident İlham Əliyev: Sonra müstəqillik dövründə burada bir kilsə bərpa edilmişdi.

- Bəli, Tur Heyerdal gələndə Mədəniyyət Nazirliyi və Norveç humanitar təşkilatı tərəfindən bir kilsə bərpa olundu. O kilsə Ümummilli Liderin vaxtında bərpa olundu. Bu kilsə isə bizim Leyla xanımın dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən bərpa edildi.

Prezident İlham Əliyev: Kiş kəndindəki kilsə deyəsən bundan kiçikdir.

-Çox kiçikdir, o birinci kilsədir, balacadır. Ən birinci, qədim kilsədir. Cənab Prezident, biz kilsəni alban, ortodoks konsepsiyasına uyğun olaraq bərpa etdik. Ermənilər özününküləşdirmişdilər. Adətən ermənilərdə Qriqoryan kilsəsində altar hissə daha hündür olur. Albanlarda isə 3 pilləkəndən ibarətdir. Bu, memarlıqda əsas elementdir. Biz onun üstünü açanda gördük ki, ermənilər bunun üstünü bağlayıblar. Biz bunları, alban xaçını təmizlədik.

Prezident İlham Əliyev: Bu, alban xaçıdır?

- Bəli, altarı da sementlə bağlamışdılar. Çöl tərəfdən naxışların hamısını bağlamışdılar. Ümumiyyətlə, alban kilsəsi erməni kilsəsindən fərqlidir. Simvollar da fərqlidir.





*Ardı Səh. 10*

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qəbələ rayonuna səfər ediblər*

Əvvəli-Səh-9

Prezident İlham Əliyev: Bilirəm, XIX əsrdə bütün alban tarixi mirasını özününküləşdirmək istəmişdilər.

-Çalışıblar.

-Prezident İlham Əliyev: Sizin əlinizdən almışdılar.

-Bəli, biz, sadəcə, imtina edib saxladıq. Bizi erməniləşdirmək istəyirdilər, etnos kimi erməniləşdirmək istəyirdilər.

Prezident İlham Əliyev: Bilirəm, onların məqsədi o idi.

-Bəli, çalışırdılar ki, biz əriyək.

Prezident İlham Əliyev: Bəli, elədir, bilirəm.

-Cənab Prezident, çox maraqlı bir fraqmenti də Sizə göstərim, burada tapılan əlyazmalardır, dünyanın ən məşhur linqvistləri tərcümə edib, alban əlifbasıdır.

Prezident İlham Əliyev: Hansı, budur?

-Bəli, görürsünüz, çox maraqlıdır, özü də udi dili əsasında 9 dilə tərcümə ediblər. Bu, onu göstərir ki, albanların öz əlifbası erməni kilsəsindən qabaq olub. Bu məşhur Avropa alimləri tərəfindən təsdiq olunmuşdur. Hər bir vərəqi orijinaldır. Mən özüm Sinayda olmuşam, görmüşəm. Məşhur linqvistlər adlar çəkir, görürsünüz bunlar orijinaldır.

Prezident İlham Əliyev: Bu əlifbanı təbliğ etmək, öyrənmək lazımdır.

- Alimlər bu kitabı orijinaldan 9 dilə tərcümə ediblər.

Prezident İlham Əliyev: Siz indi gərək Mədəniyyət Nazirliyi ilə birlikdə bu əlifbada kitablar da dərc edəsiniz, uşaqlar da bu əlifbanı bilsinlər ki, bu, bərpa olunsun. Çünki bu əlifba demək olar ki, istifadə olunmur. Ona görə, gərək bərpa edək. Elmlər Akademiyası, Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu ilə birlikdə.

- Surətini vermişik.

Prezident İlham Əliyev: Məşğul olun, bu əlifbada kitablar da dərc olunsun və uşaqlar da bu əlifbanı bilsinlər ki, bu əlifbanı biz bərpa edək.

-Cənab Prezident, bizim müqəddəs kitab birinci dəfə latın əlifbası ilə alban dilinə tərcümə olunub, onu Sizə hədiyyə edirik. Birinci dəfədir, hələ heç təqdimatını etməmişik. Müqəddəs kitabdır.

Prezident İlham Əliyev: Alban dilində?

-Bəli, özümüz tərcümə etmişik. Özü də Rafik müəllim tərcüməçidir. Biz burada 49 hərfdən istifadə etdik.

Prezident İlham Əliyev: 49 hərf var?

-Qədim 52-dir, biz bunu 49 etdik ki, kompüterdə işləmək üçün yüngül olsun. Burada bizim məktəblərdə latın əlifbası əsasında 4-cü sinfə kimi ana dili dərsi keçirilir.

Prezident İlham Əliyev: Çox yaxşı, alban dili də yaşasın, bütün udilər bilməlidirlər.

-Udilər hamısı bilirlər, xüsusən Azərbaycan dilini çox gözəl bilirlər.

Prezident İlham Əliyev: O, öz yerində, Azərbaycan dili dövlət dilidir. Amma, alban dili təkcə məişətdə yox, burada udilər arasında geniş istifadə olunmalıdır.

-Müqəddəs kitablar buraxırıq, təqvimlər buraxırıq. Bunları yavaş-yavaş bərpa edirik.

Prezident İlham Əliyev: Çox yaxşı.

-Cənab Prezident, Siz noyabrın 24-də Ağdam məscidinin önündə olandan dörd gün sonra mən də orada idim, Robert müəllim də orada idi. Siz bütün dünyaya bəyan etdiniz ki, işğaldan azad olunmuş torpaqlarda biz kilsələri, məscidləri, monastırları bərpa edəcəyik, udi qardaşlar buraya gələcəklər. Siz bizi yaşatdınız. Biz oraya getdik, cənab Prezident. Biz Xocavəndə, Tuğa da getdik. Necə dediniz ki, qardaşlar buraya gələcəklər, bəli, biz gəldik.











Prezident İlham Əliyev: Elədir, tarixi ədalət bərpa edildi.

- Sizə cansağlığı, uzun ömür arzulayırıq, Allah Sizi və ailənizi qorusun. Biz bu kilsədə də, bizim Yelisey adına kilsədə də, Qarabağda da daim dua edirik.

Prezident İlham Əliyev: Sağ olun, bütün udi qardaşlarımıza, bütün icma nümayəndələrinə salamlarımızı çatdırın. Siz bilirsiniz, mən birinci dəfə deyil buradayam, üçüncü dəfədir. İkinci dəfə gələndə məktəbin açılışı oldu.

-Bəli, çox gözəl yadımızdadır. Məktəbdə olduq.

Prezident İlham Əliyev: İndi mənə dedilər ki, bir məktəbin də təmirinə ehtiyac var. 1968-ci ildə tikilmiş məktəb yararsız vəziyyətdədir. O göstərişi də verəcəyəm. Sərəncam da imzalanacaq ki, o məktəbi də bərpa edək. Lazım olan bütün başqa işlər də görüləcək. Mən hər zaman sizin yanınızdayam.

-Çox sağ olun. İki məktəbimiz var, hansı ki, yaşı 150 ildən çoxdur.

Prezident İlham Əliyev: İki məktəb?

-Bəli. Çox gözəl etnoqrafik muzeyimiz var.

Prezident İlham Əliyev: Təmirə ehtiyacı olan iki məktəbdir, yoxsa, bir məktəb? Mənə 4 nömrəli məktəb dedilər.

-İki.

Prezident İlham Əliyev: Biri hansıdır?

-Bir nömrəli məktəb.

Prezident İlham Əliyev: Bir və dörd.

-Bəli. Həmin məktəbin həyətində kilsə də var. Amma bir nömrəlinin yaşı 150-dən çoxdur.

Prezident İlham Əliyev: O biri məktəblərin vəziyyəti necədir?

-O da pisdir.

Birinci xanım Mehriban Əliyeva: Mən tapşıraram Heydər Əliyev Fondunun xətti ilə təmir olunsun.

-Bir məktəb 1972-ci ildə tikilib. Cənab Prezident, bizim gənclər üçün gələcəkdə bir idman kompleksinə böyük ehtiyac var.

Prezident İlham Əliyev: Təşkil edərik. Orada kənddə yer var?

-Həmin məktəbin həyətində yer var.

Prezident İlham Əliyev: O, bir nömrəli məktəbdir?

-Bəli.

Prezident İlham Əliyev: Bir nömrəli məktəbin təmiri, idman kompleksi ilə bağlı işləri yəqin ki, Heydər Əliyev Fondu görəcək. Dörd nömrəli məktəbdə isə təmir işləri dövlət xətti ilə həyata keçiriləcək.

- Həmin kilsənin həyətində.

Prezident İlham Əliyev: Mən olduğum kilsənin həyətində?

-Bəli.

Prezident İlham Əliyev: Gedək, oraya baxaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva mayın 15-də Qəbələnin Nic qəsəbəsində 1 saylı orta məktəbdə və Müqəddəs Yelisey adına Cotari kilsəsində olublar. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva əvvəlcə Nic qəsəbəsindəki 1 saylı orta məktəbə gəldilər. Məlumat verildi ki, 1857-ci ildə inşa edilən bu məktəbdə hazırda 135 şagird təhsil alır.

XXX

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Müqəddəs Yelisey adına Cotari kilsəsində oldular, burada şam yandırdılar.

Bildirildi ki, Nic qəsəbəsindəki bu kilsə də Heydər Əliyev Fondu tərəfindən 2006-cı ildə əsaslı bərpa olunaraq Alban-Udi Xristian dini icmasının istifadəsinə verilib. Müqəddəs Yelisey kilsəsi 1823-cü ildə tikilib. Tolerantlığın kiçik modeli olan Nic qəsəbəsində hazırda 3 kilsə, 2 məscid var. Dünyadakı 10 minə yaxın udinin 4 minə yaxını Qəbələnin Nic qəsəbəsində yaşayır. Daha sonra burada xatirə şəkilləri çəkdirildi.

Mayın 15-də həmçinin Qəbələ Dəmir Yolu Vağzalının və Ləki stansiyası-Qəbələ birxətli dəmir yolunun açılışı olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Dəmir yollarının müasirləşdirilməsi ölkəmizin iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, həm də sosial sahənin inkişafına yüksək diqqətin real göstəricisidir.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, hazır vəziyyətə gətirilən Ləki stansiyası-Qəbələ birxətli dəmir yolunun tikinti işlərinə 2018-ci ildə başlanılıb. Dəmir yolu xətti ox üzrə 42,3 kilometr, yan yollarla birlikdə isə 44,5 kilometrdir. Diqqətə çatdırılıb ki, ümumilikdə, layihə üzrə 122 süni mühəndis qurğusunun, Ağdaş dəmir yolu dayanacağının, Qəbələ Dəmir Yolu Vağzalının və stansiyasının, Qəbələ dartı yarımstansiyasının tikintisi, həmçinin Hacıalı yarımstansiyasının təmiri işləri yerinə yetirilib.

Qeyd edək ki, ən müasir yolnəqliyyat infrastrukturu, ilk növbədə, vətəndaşların rahatlığına xidmət edəcək. Bu layihənin reallaşması Qəbələdən paytaxta və digər yerlərə gedən sakinlərin rahat və təhlükəsiz şəkildə mənzil başına çatmasına hərtərəfli imkan yaradır.

# “Bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir”

## *Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib*



**“Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır”**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

**Müxbir: Salam cənab Prezident, xoş gördük Sizi. Cənab Prezident, bu gün Siz Naxçıvan Muxtar Respublikasına səfər etdiniz və bir sıra sosial-iqtisadi obyektlərin açılışında iştirak etdiniz. Təəssüratlarınızı bilmək istərdim.**

**Prezident İlham Əliyev:** Təəssüratlarım çox müsbətdir. Hər zaman Naxçıvanda olanda, burada inkişafı görəndə çox sevinirəm. Bu, mənim Naxçıvana 15-ci səfərimdir və hər səfər çərçivəsində bir çox obyektlərin açılışında iştirak edirəm.

Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir. Bu gün bir neçə infrastruktur layihəsinin açılışında iştirak etmişəm, o cümlədən Ordubad şəhərində içməli su və kanalizasiya layihəsinin istifadəyə verilməsini qeyd etmişik. Yollarla, elektrik təchizatı, qazlaşdırma ilə bağlı - bütün istiqamətlər üzrə muxtar respublikada görülən işlər məni çox sevindirir. Təkcə onu demək kifayətdir ki, qazlaşdırmanın səviyyəsi artıq 100 faizə çatıb. Elektrik enerjisi ilə təchizat 100 faizə çatıb və Naxçıvanda çox böyük enerji potensialı yaradılıb. Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpaolunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir.

Bütün şəhərlər artıq magistral yollarla bir-birinə bağlanıbdır və Naxçıvana olan hər bir insan bunu görür. Yollar çox keyfiyyətlə tikilir, mən bu yolların açılışlarında iştirak etmişəm, bəzi yollar çoxdan istismara verilib, amma buna baxmayaraq keyfiyyət də yerindədir. İçməli su layihələri bütün şəhərləri əhatə edir. İndi üç şəhərdə bu layihələr icra ediləcək və beləliklə, bu məsələ də tamamilə öz həllini tapacaq.

Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb. Kənd təsərrüfatı ilə bağlı görülmüş işlər nəticəsini verməkdədir. Bu gün Süni Mayalanma Mərkəzinin açılışında olduq. Bildirməliyəm ki, ölkəmizdə cəmi iki mərkəz var - biri Göygöldə, biri də Naxçıvanda. Əminəm ki, bu mərkəzin fəaliyyəti nəticəsində yaxın 4-5 ildən sonra Naxçıvanda südçülük sahəsində artıq bütün işlər tamamlanmış olacaq və Naxçıvan özünü necə ki, digər əsas ərzaq məhsulları ilə təmin edir, südlə də təmin edəcəkdir. Yəni, bütün bunlar inkişafın təzahürüdür.

Eyni zamanda, bu gün “ASAN xidmət” Mərkəzinin tikintisi ilə tanış oldum. Bu da ictimai xidmətlər sahəsində çox önəmli bir təsisatdır və ölkəmizdə hazırda 7 mərkəz tikilir, o cümlədən Naxçıvanda. Onlar istifadəyə veriləndən sonra “ASAN xidmət” mərkəzlərinin sayı 27-yə çatacaq. Ölkəmizdə hazırda DOST mərkəzləri yaradılır. Artıq göstəriş vermişəm ki, Naxçıvanda da DOST Mərkəzi yaradılsın. Bu da sosial təminat və pensiya təminatı sahələrində bizim növbəti uğurlu addımımızdır, milli brendimizdir.

Naxçıvanın çox böyük turizm potensialı var. Bu gün yeni uçuş-enmə zolağının açılışını qeyd etdik və biz turistlərin Naxçıvana gəlməsini stimullaşdırmalıyıq. Əlbəttə, pandemiya ilə əlaqədar bütövlükdə turizm sektoru tənəzzülə uğrayıb. Amma əminəm ki, pandemiyadan sonra Naxçıvana gəlmək istəyən xarici qonaqların sayı daha da artacaq.

Bir sözlə, muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır.

**- Cənab Prezident, bu gün, eyni zamanda, hərbi aerodromun və hərbi hospitalın açılışı oldu. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin təmin olunmasında bu iki obyektin fəaliyyətə başlamasını necə qiymətləndirirsiniz?**

- Əlbəttə, Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin təmin edilməsində, hərbçilərin xidmət və məişət şəraitinin yaxşılaşdırılmasında bu obyektlərin böyük önəmi var. Çünki hərbçilərin indi xidmət şəraiti yaxşılaşır, yeni hərbi hissələr tikilir. Son illər ərzində Naxçıvanda demək olar ki, bütün hərbi hissələr yenidən quruldu və olmayan bir çox hissələr yaradılmışdır. Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının açılışı da əlamətdar hadisədir. Çünki bu, Naxçıvan Muxtar Respublikasının ən böyük tibb müəssisəsidir, çarpayıların sayına görə Mərkəzi Xəstəxanadan da böyükdür. Eyni zamanda, hərbi aerodromun açılması Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin təmin edilməsində xüsusi yer tutur.

Ümumiyyətlə, deyə bilərəm ki, Naxçıvanın müdafiə potensialının möhkəmlənməsinə həmişə böyük diqqət göstərilib. Təsadüfi deyil ki, mənim göstərişimlə Naxçıvanda Ümumqoşun Əlahiddə Ordu yaradılmışdır və ordu ən müasir silah və texnika ilə təchiz edilmişdir. Bu gün Naxçıvan ordusunda olan hərbi texnika deyə bilərəm ki, bəlkə də bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiyaya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə Azərbaycan Ordusuna xaricdən gətirilmiş texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur. Əlbəttə ki, Naxçıvan Ümumqoşun Əlahiddə Ordunun döyüş qabiliyyəti də yerindədir və uğurlu Günnüt əməliyyatı - üç il bundan əvvəl keçirilmiş əməliyyat bunun bariz nümunəsidir. O əməliyyat Ermənistanda hakimiyyət dəyişikliyinə təsadüf etdi, ona görə, hakimiyyətə gəlmiş yeni iqtidar bunu bir növ ört-basdır etməyə çalışdı. Biz də heç üstünü vurmadıq. Çünki bizə hansısa təbliğat yox, real iş lazımdır. Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi. Qarşı tərəf bilir ki, bizim nəzarətimizdə olan bu kommunikasiyalar istənilən vaxt kəsilə bilər və əlbəttə, öz addımlarını buna uyğun atmalıdır.

Günnüt əməliyyatı, biz də dediyim kimi, bunun üstünü vurmaq istəmədik. Amma ondan sonra Ermənistanın artıq devrilmiş hakimiyyətinin jurnalist nümayəndələri gedib bizim yeni postlarımızı çəkib, bunu internetdə qoyubdur, paylaşıbdır və ondan sonra Ermənistanda hay-küy qalxdı. Onda mən dedim ki, daha biz də niyə gizlətməliyik? Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədrinə tapşırıq verdim ki, siz də məlumat verin, çəkiliş qrupu göndərin və çəkiliş qrupu getdi, həmin o yüksəklikləri gördü. Yəni, Günnüt əməliyyatı Naxçıvan Ordusunun potensialını göstərdi, Azərbaycan Ordusunun potensialını göstərdi. İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri - həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda, mən onu da bildirməliyəm, yəni, artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır.

**- Cənab Prezident, bu gün Siz, eyni zamanda, Ordubad dəmir yolu stansiyasında yaradılan şəraitlə də tanış oldunuz. Adını elə Siz özünüz qoyduğunuz Zəngəzur dəhlizinin həyata keçirilməsində bu stansiyanın rolu necədir? Ümumiyyətlə, işlərin gedişi ilə bağlı nə deyə bilərsiniz?**

- Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan təqribən 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki, açılmalıdır və açılacaqdır.

Bildiyiniz kimi, 10 noyabr tarixli birgə Bəyanatda bu, təsbit edilib. Ondan sonra fəaliyyət göstərən Azərbaycan-Ermənistan-Rusiya Baş nazirlərinin müavinləri səviyyəsində işçi qrupunun keçirilmiş iclaslarında da artıq bu məsələ ilə bağlı çox ciddi addımlar atılır. Əminliklə deyə bilərəm ki, dəmir yolu dəhlizi açılacaqdır. Heç kimdə bu haqda şübhə olmasın. Əlbəttə ki, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək. Bildiyiniz kimi, mən Horadiz-Ağbənd dəmir yolunun təməl daşını qoydum. Burada çatışmayan 15-16 kilometrlik hissə inşa ediləcəkdir, Ordubaddan Ermənistan sərhədinə qədər. Naxçıvan dəmir yolu fəaliyyət göstərir, indi həm sərnişin, həm yük daşımaları həyata keçirilir. Yəni, Azərbaycan ərazisində Horadiz-Ağbənd dəmir yolu tikiləndən sonra bütün infrastruktur yaradılacaqdır.

O ki qaldı, Ermənistan ərazisində olan hissəyə, bildiyiniz kimi, Ermənistan dəmir yolları anlayışı yoxdur. Rusiya dəmir yolları bütün Ermənistanın dəmir yollarına sahibdir. Deməli, Ermənistan dəmir yolları ona məxsusdur. Ona görə biz bu məsələni daha çox Rusiya tərəfi ilə müzakirə edirik. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq. Əminəm ki, bu, olacaqdır, məndə heç bir şübhə yoxdur. Bir daha demək istəyirəm ki, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək və əlindən gələni edəcək ki, bu layihənin həyata keçirilməsində heç bir problem olmasın.

Ardı Səh. 12



# "Bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir"

## *Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib*

Əvvəli-Səh-11

**- Cənab Prezident, bu gün ölkəmizin həyatında çox tarixi və əlamətdar bir gündür. Bu gün Ulu Öndərin doğum günüdür. Siz bu gün səhər Ulu Öndərin məzarını ziyarət etmisiniz. Burada - Naxçıvanda isə babanızın məzarını ziyarət etmisiniz. İstərdik hisslərinizi bölüşəsiniz.**

- Bilirsiniz, tarixi Zəfərdən sonra bu, atamın birinci doğum günüdür. Ona görə mən hesab etdim ki, ənənəvi olaraq onun məzarını ziyarət edəndən sonra onun Vətəninə - Naxçıvana gəlim. Hesab edirəm ki, bu səfərin çox böyük rəmzi mənası var. Qeyd etdiyim kimi mən 15-ci dəfədir ki, Naxçıvana gəlirəm. Amma ilk dəfə mayın 10-da Naxçıvandayam. Bu doğum günündə mütləq burada olmalıydım.

Babam Əlirza Əliyevin məzarını ziyarət etdim. Əlirza Əliyev və mənim nənəm İzzət xanım Azərbaycan xalqına Heydər Əliyev kimi dahi şəxsiyyət bəxş etmişlər. Heydər Əliyev nəinki Azərbaycan hüdudları çərçivəsində, dünya miqyasında böyük hörmət qazanmış və müstəsna xidmətləri olmuş şəxsiyyətdir. Heydər Əliyev həyatda nə əldə edibsə öz biliyi, bacarığı, zəkası və fədakarlığı nəticəsində əldə edib və bütün dövrlərdə xalqımıza ləyaqətlə xidmət edib. Məhz onun rəhbərliyi ilə Azərbaycan 1970-ci illərdə ayağa qalxdı, ən geridə qalmış müttəfiq sovet respublikasından ən qabaqcıl respublikaya ucaldı. Onun rəhbərliyi ilə, bax, burada - Naxçıvanda naxçıvanlılar erməni işğalının qabağını ala bildilər. Çünki mənfur düşmənin niyyətləri də, məhz siyasəti də o idi ki, Naxçıvanı da işğal etsinlər. Bu, artıq onların növbəti işğal planı çərçivəsində idi. Bu təhlükə var idi, bu təhlükə çox ciddi idi. Azərbaycana o vaxt heç kim kömək etmirdi. Azərbaycanın ordusu yox idi, Silahlı Qüvvələri yox idi. Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas hissəsi ilə əlaqəni itirmişdi. Ermənilər Naxçıvanı blokadaya almışdılar. Üç tərəfdən Naxçıvan Ermənistanla əhatə olunur. Belə bir vəziyyətdə Naxçıvanı qorumaq, müdafiə etmək və düşməni yerinə oturtmaq Ulu Öndərin müstəsna xidmətlərindən biridir.

Əlavə olaraq deməliyəm, o vaxt hakimiyyətdə olan AXC-Müsavat cütlüyü bütün imkanları səfərbər etmişdi ki, Naxçıvanda Heydər Əliyevi devirsinlər, öz marionetlərini gətirsinlər və faktiki olaraq Naxçıvanı da ermənilərə bağışlasınlar. Onlar buna da hazır idilər, təki Heydər Əliyev amili Azərbaycan siyasətindən götürülsün.

Ancaq Ulu Öndərin qətiyyəti, cəsarəti, siyasi müdrikliyi, naxçıvanlıların fədakarlığı bütün bu planları - ermənilərin və AXC-Müsavat cütlüyünün planlarını alt-üst etmişdir və Naxçıvanı Heydər Əliyev qorumuşdur, necə ki, ondan sonra Azərbaycanı böyük bəlalardan qoruya bildi. 1993-cü ildə ölkəmiz demək olar ki, parçalanırdı, vətəndaş müharibəsi gedirdi və məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində biz bu ağır sınaqdan üzüağ çıxa bildik. Məhz bugünkü Zəfərin təməli, bax, o vaxt qoyulmuşdur.

Bu gün burada olmağımın xüsusi rəmzi mənası var. Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün Ulu Öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax, bu inkişafda təcəssüm etdirir.

**- Cənab Prezident, növbəti sual Dağlıq Qarabağla bağlıdır. Bəzi ölkələr və xarici dairələr deyirlər ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmalıdır. Siz dəfələrlə qeyd edibsiniz ki, Dağlıq Qarabağ münaqişəsi artıq həll olunubdur. Bu cür bəyanatlara Sizin münasibətinizi bilmək istərdim.**

- Mən bir daha demək istəyirəm, müharibədən sonra bunu dəfələrlə demişəm ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan bu münaqişəni təkbaşına həll edib, həm döyüş meydanında və ondan sonra masa arxasında. Döyüş meydanında qazanılmış Qələbə düşməni məcbur etdi ki, ağ bayraq qaldırsın və təslim olsun, kapitulyasiya aktına imza atsın. Noyabrın 10-da imzalanmış sənəd məhz Ermənistanın kapitulyasiya aktıdır.

Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Münaqişə öz həllini tapıb və hesab edirəm ki, bu məsələyə qayıtmaq əbəsdir. Hər halda, müharibədən sonra keçən dövr ərzində bunu göstərdik. Birincisi, əgər kimsə hesab edir ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmayıb, bu, onun öz problemidir. İkincisi, bu, çox təhlükəli yanaşmadır. Əgər bu münaqişə həll olunmayıbsa, onda bu münaqişənin həlli necə olmalıdır? O deməkdir ki, noyabrın 10-da imzalanmış Bəyanat qüvvəsini itirib? Yəni, mən bunu belə başa düşə bilərəm. Noyabrın 10-da faktiki olaraq - de-fakto münaqişənin həlli ilə bağlı sənəd imzalandı. Bu, təkcə atəşkəs haqqında sənəd deyil, bəziləri bunu belə qələmə vermək istəyirlər. Açsınlar gözlərini baxsınlar, orada neçə maddə var. Atəşkəs haqqında sənəddə bir maddə olur - atəşkəs, vəssalam. Burada bir çox maddələr var. Bir çox məsələləri əhatə edən maddələr var, o cümlədən kommunikasiyaların açılması. Münaqişə həll olunmayıbsa, hansı kommunikasiyaların açılmasından söhbət gedə bilər? Əgər Münaqişə həll olunmayıbsa, nə üçün onda Azərbaycan, Ermənistan və Rusiya Baş nazirlərinin müavinləri görüşürlər, razılığa gəlirlər.

Münaqişə həll olunub, bu, bir. Hesab edirəm ki, bu məsələ ilə məşğul olmuş tərəflər və bu məsələ ilə məşğul olmaq istəyən, - bilmirəm nəyə görə, - ölkələr bunu nəzərə alsınlar. Çünki bəzən buradan dünyanın o başında yerləşən ölkələr bizim münaqişə ilə bağlı, yaxud da ki, Azərbaycanda gedən proseslərlə bağlı bəyanatlar verirlər. Bu, qəbuledilməzdir. Məsələn, mən Kanadanı misal gətirə bilərəm. Bu yaxınlarda mənə məlumat verildi ki, Kanadanın Xarici İşlər Nazirliyi Azərbaycanla, bizim daxili işlərimizlə bağlı bəyanat verir. Nə haqqı var? Kim buna belə bir haqq verib? Özünü nə sayır Kanada? Bəlkə bu, superdövlətdir biz bilməmişik. Bu, bəlkə ikinci Lüksemburqdur, ikinci superdövlət yaranıb, bunu bilməmişik. Otursun öz işləri ilə məşğul olsun.

Mən Fransa Xarici İşlər Nazirliyinin bəyanatını da rədd edirəm. Bu, qəbuledilməzdir. Biz dəfələrlə Fransa tərəfinə öz iradlarımızı bildirmişik ki, əl çəkin bizdən. Gedin, öz işlərinizlə məşğul olun. Yoxsa Fransa Senatının sədri gəlir İrəvana, orada bəyanat verir ki, Fransa Senatı Dağlıq Qarabağı tanıyacaq. Biz Fransanın hökumət orqanlarına bu məsələ ilə müraciət edəndə, öz etirazımızı bildirəndə bizə deyirlər ki, fikir verməyin, bu, qanunvericilik orqanıdır, hakimiyyətin mövqeyini əks etdirmir. Yaxşı, bəs Xarici İşlər Nazirliyi, o da hökumətin mövqeyini əks etdirmir? Bu nə bəyanatlardır? Getsinlər, öz işləri ilə məşğul olsunlar. Bu Hərbi Qənimətlər Parkı ilə Azərbaycana qarşı aparılan çirkin kampaniyaya son qoyulmalıdır. Fransa muzeyində Əlcəzair Milli Müqavimət Hərəkatının öldürülmüş öndərlərinin kəllələri nümayiş etdirilir. Bir gedin baxın, güzgüyə baxın, necə dəfə mən bunu deməliyəm. Jurnalistlərə, xarici jurnalistlərə deməliyəm, xarici siyasətçilərə deməliyəm. Mən deyəcəyəm, mən susmayacağam. Amma onlar da öz işləri ilə məşğul olsunlar. Özləri problemlər içində çabalayırlar. Min cür problemləri var.

Azərbaycanda bütün proseslər müsbət istiqamətdə gedir. Ona görə bir daha demək istəyirəm ki, əgər bütün ölkələr öz işləri ilə məşğul olsalar və bizim işimizə müdaxilə etməyə cəhd göstərməsələr, işlər yaxşı gedəcək və bizim münasibətlərimizdə heç bir problem olmayacaq.

O ki qaldı, bəzi siyasətçilər Dağlıq Qarabağın - deməli, olmayan qurumun statusu haqqında danışırlar. Onu da mən demişəm, əgər kimsə bizim ərazimizdə yaşayan ermənilərə status vermək istəyirsə, mən etiraz etmirəm, amma öz ölkəsində onlar üçün yaxşı bir yer seçsin. O yerlər artıq çoxdan erməni diasporu tərəfindən zəbt edilib. Orada bir muxtariyyət versin, ya müstəqillik versin. Amma Azərbaycanda yox. Azərbaycanda bu, olmayacaq. Kim nə deyirsə desin. Ona görə məsləhət görürəm ki, bizi əsəbiləşdirməmək və münasibətlərimizi gərginləşdirməmək üçün nə status haqqında, nə münaqişə haqqında hər hansı bir açıqlama verilməsin. Veriləcəksə, cavablarını alacaqlar.

> *"Günnüt əməliyyatı Naxçıvan Ordusunun potensialını göstərdi, Azərbaycan Ordusunun potensialını göstərdi. İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri - həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər"*

**- Cənab Prezident, mayın 8-də - Şuşanın işğalı günü Ermənistanda bəzi iqtidar və müxalifət qüvvələri Şuşanın qaytarılması ilə bağlı bəyanatlar verdilər və revanşist fikirlər səsləndirdilər. Siz dəfələrlə qeyd etmisiniz ki, əgər onlar revanşist addımlar haqqında düşünsələr, darmadağın ediləcəklər. Bu bəyanata münasibətinizi bilmək istərdik.**

- Mənim sözüm yerindədir. Əgər onlar bu bəyanatlardan hansısa praktiki əməllərə keçsələr, dərhal məhv olunacaqlar. Heç kim onları müdafiə edə bilməz. Heç kimə də bel bağlamasınlar. Onlar uzun illər dırnaqarası "müzəffər və güclü" ordusu ilə öyünürdülər. Ermənistanda nə güc var, nə iradə var, nə hər hansı bir mənəvi haqq var ki, revanşist fikirlərlə yaşasın. Bu, onlar üçün özünəqəsddir. Bir daha demək istəyirəm, biz hələ ki, bu bəyanatları izləyirik. Ermənistanda həm iqtidar, həm də müxalifət, demək olar ki, siyasətlə məşğul olan bütün ünsürlər Şuşanın qaytarılması ilə bağlı, Hadrutun qaytarılması ilə bağlı fikirlər səsləndirirlər. Biz hələ ki, təmkin göstəririk. Amma odla oynamasınlar. Onlar bizim yumruğumuzu görüblər. Bu yumruq yerindədir. Heç kim bizim qabağımızda dura bilməz. Əgər biz zərrə qədər təhlükə görsək, - zərrə qədər, - onları dərhal məhv edəcəyik. Elə yerindəcə məhv edəcəyik. Onlar da bunu bilirlər. Gücümüz də var, iradəmiz də var, cəsarətimiz də var. Yumruq da yerindədir.

# Ümummilli Liderin 98-ci ildönümü münasibətilə ağacəkmə aksiyası keçirilib

***Mayın 9-da Yeni Azərbaycan Partiyasının və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə Binəqədi Rayon Xocasən qəsəbəsinin ərazisində ağacəkmə aksiyası keçirilib.***











SİA-nın verdiyi məlumata görə, aksiyada Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya Komitəsinin sədri Sadiq Qurbanov, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev, YAP Mərkəzi Aparatının, ETSN-nin və Binəqədi RİH-nin əməkdaşları, partiyanın Gənclər Birliyinin üzvləri iştirak ediblər.

Bu tədbir Yeni Azərbaycan Partiyası fəallarının ölkəmizdə həyata keçirilən yaşıllaşdırma aksiyasına növbəti töhfəsidir. Gələcəkdə də bu cür aksiyaların davamlı olacağı nəzərdə tutulmuşdur. Müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, ekoloji vəziyyətin qorunmasına, yaşıllıqların və parkların salınmasına xüsusi diqqət yetirmişdir. Yeni Azərbaycan Partiyası da Ulu Öndərimiz tərəfindən qoyulan bu ənənəni layiqincə davam etdirməkdədir. Qeyd edək ki, ağacəkmə aksiyası çərçivəsində 850 ağac əkilib.

***Ceyhun Rasimoğlu***

# “Xarıbülbül” festivalı Qarabağın tarixi simasının, Şuşanın mədəniyyət mərkəzi statusunun bərpasını təcəssüm etdirir



**Azərbaycanın mədəniyyət paytaxtı Şuşada “Xarıbülbül” musiqi festivalının keçirilməsi tarixi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Heydər Əliyev Fondunun təşkil etdiyi möhtəşəm “Xarıbülbül” musiqi festivalının təşkili Qarabağın tarixi simasının, Şuşanın mədəniyyət mərkəzi statusunun bərpasını təcəssüm etdirir.**

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Deputat bildirib ki, Şuşanın rəmzi olan gülün adını daşıyan “Xarıbülbül” musiqi festivalı ilk dəfə 1989-cu ilin mayında Şuşanın əsrarəngiz Cıdır düzündə təşkil olunub. 32 ildən sonra keçirilən “Xarıbülbül” musiqi festivalının şəhidlərimizin əziz xatirəsinə həsr olunması böyük əhəmiyyətə malikdir. Bu, 44 günlük Vətən müharibəsində qazanılmış Zəfərin mədəniyyət sahəsində davamıdır. Çox sevindirici haldır ki, bu ildən başlayaq hər il Şuşada “Xarıbülbül” musiqi festivalı keçiriləcək, eləcə də gələn il şəhərin 270 illik yubileyi qeyd olunacaq. Azərbaycan Şuşa şəhərini yenidən bərpa edir, dirçəldir, onun əvvəlki şöhrətinin qaytarılması üçün yeni dövr başlayır. Bu dövr milli qürur, milli ləyaqət və inkişaf, dirçəliş dövrüdür.

“Şuşa Azərbaycan xalqının milli sərvətidir”, - deyən Sevinc Fətəliyeva qeyd edib ki, bu yaxınlarda dövlətimizin başçısı tərəfindən Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi bunu bir daha sübut edir. Ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilməyiblər. Uzun illərdən sonra bərpa edilən festival sözün əsl mənasında milli birlik, qürur, zəfər, ləyaqət bayramına çevrildi. Bizlərə belə bir qürurlu günlər yaşatdığı üçün Müzəffər Ali Baş Komandanımız başda olmaqla qəhrəman hərbçilərimizə borcluyuq.

“Xarıbülbül” musiqi festivalında Prezident İlham Əliyevin dərin məzmunlu çıxış etdiyini xatırladan deputat deyib: “Dövlətimizin başçısı bildirdi ki, münaqişənin ilk günlərindən etibarən Ermənistanın rəsmi təbliğatı Azərbaycanda müxtəlif dini, etnik, linqvistik icmalar arasında təfriqə yaratmaq, Azərbaycan dövlətçiliyini zəiflətmək və parçalamaq üçün davamlı iş aparmışdı. Düşmən bu məqsədlə mərkəzlər, təşkilatlar, KİV-lər qurulmuş, milyonlarla vəsait xərclənmişdi. Bu işdə xaricdəki erməni lobbisi, onların havadarları da kifayət qədər fəaliyyət göstəriblər. 44 gün ərzində torpaqlarımızın işğaldan azad olunması üçün bütün etnik və dini icmaların nümayəndələri vahid amal, vahid bayraq altında birləşərək çiyin-çiyinə döyüşməklə bu təbliğatın, bu fəaliyyətin öz hədəfinə çatmadığını, mənasızlığını ortaya qoydu. Eyni zamanda, Azərbaycanda əsrlərlə mövcud olmuş tolerant mühitin, multikulturalizm ənənələrinin qorunmasına Prezident İlham Əliyevin hakimiyyəti illərində yüksək diqqət ayrılmasının da nə qədər düzgün siyasət olduğunu sübut etdi”.

Sevinc Fətəliyeva vurğulayıb ki, Vətən müharibəsindəki Qələbədə bütün icmaların payı, töhfəsi vardır. Azərbaycan Prezidentinin tövsiyəsi əsasında həyata keçirilən builki “Xarıbülbül” festivalı həm də Azərbaycan multikulturalizm ənənələrinin rəmzinə çevrildi.

# YAP GB-nın üzvləri Ağstafa rayonunda şəhid ailəsini ziyarət ediblər







Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin üzvləri Ağstafa rayonunda doğum günü münasibətilə şəhid ailəsini ziyarət ediblər.

SİA-nın verdiyi məlumata görə, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, Ağstafa Rayon İcra Hakimiyyətinin başçısının müavini Lalə Eyyubova, YAP Ağstafa rayon təşkilatının fəalları, Gənclər Birliyinin könüllüləri əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidəsinin önünə gül dəstələri qoyublar.

Sonra Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin üzvləri partiyanın Ağstafa rayon təşkilatının Gənclər Birliyinin sədri şəhid Elvin İmaməliyevin məzarını ziyarət etdikdən sonra, onun ailə üzvləri ilə görüşüb, problemləri ilə maraqlanıblar.



# Qırğızıstan portalı Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşaya səfəri ilə bağlı materiallar yayıb


УЗБЕКИСТАН
КЫРГЫЗСТАН
КАЗАХСТАН
ТУРЦИЯ
ТУРКМЕНИСТАН

БИБЛИОТЕКА

12 мая Президент Азербайджанской Республики Ильхам Алиев, первая леди Мехрибан Алиева, их дочери Лейла Алиева и Арзу Алиева побывали на восстановленном роднике «Хан гызы» в Шуше.

Как сообщает АЗЕРТАДЖ,глава государства и члены его семьи выпили воды из родника.

Президент Ильхам Алиев сказал:

-Из родника Натаван вновь идет вода. Мы восстановили родник «Хан гызы Натаван». В прошлый раз в январе, находясь в Шуше, я сказал, что мы восстановим родник Натаван. Родник вновь будет передан в распоряжение жителей и гостей города Шуша. Ненавистный враг осушил этот и все остальные родники. Это говорит о том, что Шуша всегда была чужим городом для армян. Сейчас Шуша возрождается, восстановлен один из ее символов – родник «Хан гызы». Сегодня я выпил воду из этого родника.

Армия Израиля сообщила о начале воздушной и наземной атаки в секторе Газа
14 мая 2021

Суд взыскал 130 тысяч рублей в пользу лидера «тамбовской» ОПГ за волокиту следствия
14 мая 2021

Стали известны новые подробности нападения на гимназию
14 мая 2021

МИД Азербайджана: Рекомендуем военно-политическим кругам Армении
14 мая 2021

Состоялся телефонный разговор министра иностранных дел Азербайджана с
14 мая 2021

Состоялся телефонный

Qırğızıstanın "turk-today.info" portalı öz səhifəsində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşaya səfəri ilə bağlı AZƏRTAC-ın rus dilində materiallarını yerləşdirib. AZƏRTAC xəbər verir ki, saytda Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, qızları Leyla Əliyevanın və Arzu Əliyevanın Şuşada 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyasının açılışında iştirak etmələri, "Xarı Bülbül" otelinin yenidənqurmadan sonra açılışının keçirilməsi, otelin nəzdindəki korpusda və kotteclərdə yaradılan şəraitlə tanışlıq, xan qızı Natəvanın sarayının qarşısındakı əraziyə baxış keçirilməsi, Yuxarı Gövhərağa məscidi, "Xan qızı" bulağı, Şuşa Yaradıcılıq Mərkəzinin yerləşəcəyi bina, Rəsm Qalereyası barədə, eləcə də Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməlinin qoyulması ilə əlaqədar yazılar da var.

Portalda Şuşada yeni məscidin təməlinin qoyulması, Şuşada Xüsusi nümayəndəliyin inzibati binası ilə tanışlıq, xan qızı Natəvanın sarayının qarşısındakı əraziyə baxış keçirilməsi, Yuxarı Gövhərağa məscidi, "Xan qızı" bulağı, Şuşa Yaradıcılıq Mərkəzinin yerləşəcəyi bina, Rəsm Qalereyası barədə, eləcə də Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməlinin qoyulması ilə əlaqədar yazılar da var.

Sayt öz səhifəsində, həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşada Cıdır düzündə təşkil olunan "Xarıbülbül" musiqi festivalına getmələri ilə əlaqədar AZƏRTAC-ın materiallarını yerləşdirib.

Materialda bildirilir ki, Azərbaycan Prezidenti festivalın açılışındakı çıxışında deyib: "Biz bu günü 30 il səbirsizliklə gözləmişik, 30 il Vətən həsrəti ilə yaşamışıq. 30 il ədalətsizliklə barışmalı olurduq, amma barışmırdıq və hər dəfə deyirdik ki, bu vəziyyətlə biz heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu bizim hamımızın qələbəsidir. Mən xahiş edirəm ki, Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək".

# Bəxtiyar İslamov: "Xarıbülbül" festivalı Azərbaycanın mədəni-intellektual potensialının sərgilənməsi idi



"Hər bir azərbaycanlı kimi bu festivalı mən də çox böyük fəxrlə izlədim. Hesab edirəm ki, biz buna sadəcə incəsənət festivalı kimi baxmalı deyilik. Bu, eyni zamanda Azərbaycanın mədəni-intellektual potensialının sərgilənməsi idi".

Bunu "Yeni TV"nin canlı yayımında "Xarıbülbül" festivalı barədə fikirlərini bildirən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov deyib.

O xatırladıb ki, 6 ay əvvəl Azərbaycanın şanlı ordusu Şuşanı düşmən tapdağından azad edib: "6 ay əvvəl real olaraq Azərbaycan ordu gücünü dünyaya sərgilədi. Çox az müddətdən sonra, belə mədəni intellektual festival keçirməklə ölkənin real gücünün fərqli aspektlərini dünyaya göstərə bildik. İctimai-siyasi tərəfdən heç də təsadüf deyildi ki, festivalda Azərbaycanda yaşayan müxtəlif xalqların mədəniyyət nümunələri nümayiş olundu. Digər tərəfdən, Azərbaycanın mədəniyyətinə, incəsənətinə xas olan istər muğam, istərsə də digər musiqi janrlarının səslənməsi, ümumilikdə festivalın keçirilməsi göstərdi ki, bu təkcə mədəniyyət festivalı deyil, həm də Azərbaycanın mədəni-intellektual potensialını dünyaya nümayiş etdirməkdir. Daha vacib bir məqam o idi ki, ulu öndər Heydər Əliyevin səs yazısı səsləndirildi. Burda emosional tərəfdən daha mühüm olan tərəf o idi ki, tarixi torpaqlarımızın indi işğaldan azad olunması təsadüfi deyil. Bu, çox uzun illər ərzində planlanmış, düşünülmüş siyasi addımların davamı idi ki, Ali Baş Komandan İlham Əliyev tərəfindən reallığa çevrildi".

# Sərhədçilərimizi öldürən sərhəd pozucusu saxlanıldı




Dövlət Sərhəd Xidmətinin əməkdaşlarını güllələyən şəxs saxlanılıb. Baş Prokurorluğun Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, mayın 15-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə"" sərhəd dəstəsinin xidməti ərazisində Yardımlı rayonunun Gendərə kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində 3 nəfər naməlum şəxs Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənarda qanunsuz olaraq keçərkən DSX-nın əməkdaşlarının qanuni tələblərinə tabe olmayaraq onlara odlu silahdan atəş açmış və nəticədə xidməti vəzifələrini icra edən baş leytenant Samir Eyvazov və kiçik gizir Fərid Alimov həlak olublar.

Keçirilmiş əməliyyat tədbirləri nəticəsində sərhəd pozucularından biri saxlanılmış, saxlanılan şəxsin İran İslam Respublikasının vətəndaşı Bərgi Həsənəli Novruz oğlu olması müəyyən edilib.

Faktla bağlı Hərbi Prokurorluq tərəfindən Cinayət Məcəlləsinin 120.2.1 (qəsdən adam öldürmə), 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən narkotik vasitə və psixotrop maddələrin qaçaqmalçılığı), 234.4.1 və 234.4.3 (satış məqsədi ilə qanunsuz olaraq külli miqdarda narkotik vasitə və psixotrop maddələri əldə etmə, saxlama, daşıma və satma), 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə cinayət işi başlanılıb.

Hadisə yerinə baxış zamanı sərhəd pozucularının qanunsuz yolla ölkə ərazisinə gətirdikləri narkotik vasitə hesab olunan 3840 qram "marixuana" və 95 qram "metamfetamin", güclü təsir edən maddə olan 17715 ədəd "preqabalin" həbi, eləcə də odlu silaha aid gilizlər və digər maddi subutlar aşkar olunaraq götürülmüşdür.

İstintaq zamanı Bərgi Həsənəli Novruz oğlu şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Cinayət işi Baş prokurorluğunun rəhbərliyi tərəfindən nəzarətə götürülüb. Hazırda qeyd olunan cinayət əməllərinin digər iştirakçılarının şəxsiyyətlərinin müəyyənləşdirilərək istintaqa cəlb edilməsi istiqamətində intensiv istintaq və əməliyyat-axtarış tədbirləri həyata keçirilir. Nəticəsi barədə ictimaiyyətə ətraflı məlumat veriləcək.

# Vüqar Bayramov: "Bu, mədəni tədbir olmaqla yanaşı, Qarabağa qayıdışımızın başlanğıcıdır"



"Şuşada sonuncu dəfə təxminən 10 yaşımda olmuşdum. Xeyli müddətdən sonra qalib ölkənin vətəndaşı olaraq yenidən Şuşaya qayıtmaq qürurverici idi".

Bu fikirləri Şuşada Cıdır düzündə keçirilən "Xarıbülbül" festivalında iştirak edən Milli Məclisin deputatı Vüqar Bayramov "Yeni TV"-nin canlı yayımında deyib.

O bildirib ki, Şuşa bizim mədəniyyət mərkəzimiz olmaqla bərabər həm də qürur mənbəyimizdir: "Şuşada olan zaman hər birimiz fərqli hisslər keçirdik. "Xarıbülbül" festivalı kifayət qədər yüksək səviyyədə təşkil olunmuşdu. "Xarıbülbül" festivalı Azərbaycan Prezidentinin göstərişi, tapşırığı ilə ərsəyə gələn tədbir idi. Azərbaycanda yaşayan fərqli xalqların nümayəndələrinin festivalda çıxışı ondan xəbər verir ki, Azərbaycan multikultural dəyərlərə önəm verən ölkədir. Şuşaya qayıdış Qarabağa qayıdış anlamına gəlir. Bu mədəni tədbir olmaqla yanaşı Qarabağa qayıdışımızın başlanğıcıdır".

Vüqar Bayramov Şuşanın Azərbaycan üçün çox önəmli olduğunu bir daha xatırladıb: "Belə bir deyim var. Şuşaya nəzarət edən, sahib olan Qarabağa sahib olur. Şuşanın tarixi, strateji əhəmiyyəti yalnız coğrafi baxımdan deyil. Siyasi baxımdan önəmi həm də odur ki, Şuşa zəfəri Qarabağa qayıdış baxımdan çox vacib zəfərlərdən idi. Son illərdə Azərbaycan iqtisadiyyatının inkişafı da zəfərimizin əldə olunmasında xüsusi rola malik oldu. İqtisadiyyatın güclü olması ölkənin hərbi, siyasi baxımdan güclü olması üçün zəmin yaradır. Aparılan siyasət, həyata keçirilən islahatlar qələbəni təmin edən əsas amillərdən biridir. Növbəti mərhələ quruculuq, bərpadır. Biz qısa zamanda Qarabağın yenidən qurulmasını müşahidə edə biləcəyik".

# Ermənistan AES bağlanır?

## METSAMORDA 141 GÜN İŞ APARILACAQ



Mayın 15-də stansiyanın modernləşdirilməsi və ömrünün uzadılması layihəsi çərçivəsində Ermənistan AES-də əsas profilaktik təmir başlayıb. SİA xəbər verir ki, bu barədə "Rosatom"-un mətbuat xidməti məlumat yayıb. Məlumatda qeyd olunur ki, modernləşdirmə müqaviləsi üzrə işlərin təşkili Rosatom-un elektrik enerjisi bölməsinin bir hissəsi olan "Rusatom Servis" ASC tərəfindən həyata keçirilir. Bildirilir ki, Ermənistan AES 141 günlük bağlanacaq və bu, layihənin başlanğıcından bu vaxta qədər ən uzun texniki işdir. Belə bir uzun dayanma, Ermənistan AES-in ikinci enerji blokunun modernləşdirilməsi üzrə son vacib işlərlə əlaqələndirilir. Nəzərə çatdırılır ki, AES-dəki işlər stansiyanın səmərəliliyini və etibarlılığını artırmaq üçün həyata keçirilməlidir.

Xatırladaq ki, Cənubi Qafqaz bölgəsində yeganə olan Ermənistan Atom Elaktrik Stansiyası, İrəvandan 30 km qərbdə, Metsamor şəhərinin yaxınlığında yerləşir. Ermənistan AES ənənəvi olaraq ölkənin əsas elektrik mənbələrindən biridir. Stansiya hər il Ermənistandakı bütün elektrik enerjisinin 40%-ə qədərini istehsal edir.

Onu da diqqətə çatdırraq ki, Ermənistan AES uzun illərdir qəzalı vəziyyətdədir. Sözügedən stansiyanın belə qəzalı vəziyyətdə olması, təkcə Ermənistan üçün deyil, bütövlükdə region üçün təhlükəlidir. Bu barədə, yəni, Ermənistan AES-in region üçün təhlükəli mənbəyi olması barədə Ermənistana dəfələrlə xəbərdarlıqlar edilsə də, onun dayandırılması tövsiyyə və tələb edilsə də, bu stansiya hələ də təmir belə edilmədən istifadə edilir. Görünür, Ermənistan gec də olsa bu xəbərdarlıqlardan və tələblərdən sonra stansiyanın təmir etdirilməsi qərarına gəlib və əslində, bu ölkə tələblər qarşısında çıxılmaz vəziyyətdə qalıb.

*İnam Hacıyev*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Naxçıvan Avrasiya nəqliyyat dəhlizinə çevrilir

### İlham Əliyev: "Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki, açılmalıdır və açılacaqdır"

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına bu həftənin əvvəlində etdiyi səfəri siyasi və iqtisadi cəhətdən olduqca əhəmiyyətlidir. Səfər zamanı dövlət başçısı regionumuzda baş verən proseslər haqda maraqlı açıqlamalar və mesajlar verdi. Biz bu yazıda daha çox səfərin və bu bölgəmizdə həyata keçirilən işlərin iqtisadi və sosial əhəmiyyətinə toxunacağıq.

### Naxçıvanın sosial infrastrukturu modernləşir

Qeyd etmək lazımdır ki, bu, İlham Əliyevin Naxçıvana 15-ci səfəri idi və olduqca məhsuldar oldu. Ölkə başçısı bir sıra sosial-iqtisadi obyektlərin açılışını etdi. Azərbaycan Televiziyasına verdiyi müsahibədə dövlət başçısı muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətləndiyini və burada yeni böyük layihələrin həyata keçirildiyini qeyd etdi.

"Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir. Bu gün bir neçə infrastruktur layihəsinin açılışında iştirak etmişəm, o cümlədən Ordubad şəhərində içməli su və kanalizasiya layihəsinin istifadəyə verilməsini qeyd etmişik. Yollarla, elektrik təchizatı, qazlaşdırma ilə bağlı- bütün istiqamətlər üzrə muxtar respublikada görülən işlər məni çox sevindirir"-deyə İlham Əliyuev bildirib.

Kommunal infrastruktun yenilənməsinə və təkmiləşməsinə toxunan Prezident deyib: "Təkcə onu demək kifayətdir ki, qazlaşdırmanın səviyyəsi artıq 100 faizə çatıb. Elektrik enerjisi ilə təchizat 100 faizə çatıb və Naxçıvanda çox böyük enerji potensialı yaradılıb. Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpaolunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir.

Bütün şəhərlər artıq magistral yollarla bir-birinə bağlanıbdır və Naxçıvanda olan hər bir insan bunu görür. Yollar çox keyfiyyətlə tikilir, mən bu yolların açılışlarında iştirak etmişəm, bəzi yollar çoxdan istismara verilib, amma buna baxmayaraq keyfiyyət də yerindədir. İçməli su layihələri bütün şəhərləri əhatə edir. İndi 3 şəhərdə bu layihələr icra ediləcək və beləliklə, bu məsələ də tamamilə öz həllini tapacaq".

30 ildir blokadada yaşayan Naxçıvanın iqtisadi potensialından səmərəli istifadə olunması burada yeni-yeni istehsal sahələrinin açılmasını şərtləndirib. Məhz xüsusi yanaşma sayəsində burada iqtisadi inkişaf tempi digər regionlara nisbətən yüksəkdir. Dövlət başçısı bu məsələyə də toxunub: "Naxçıvanda sənaye potensialı inkişaf edir, artır. Muxtar Respublika son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb. Kənd təsərrüfatı ilə bağlı görülmüş işlər nəticəsini verməkdədir. Yəni, bütün bunlar inkişafın təzahürüdür. Naxçıvanın çox böyük turizm potensialı var. Bu gün yeni uçuşenmə zolağının açılışını qeyd etdik və biz turistlərin Naxçıvana gəlməsini stimullaşdırmalıyıq. Əlbəttə, pandemiya ilə əlaqədar bütövlükdə turizm sektoru tənəzzülə uğrayıb. Amma əminəm ki, pandemiyadan sonra Naxçıvana gəlmək istəyən xarici qonaqların sayı daha da artacaq".

Prezident İlham Əliyev NMR-də sosial təyinatlı obyektlərin tikintisinin davam etdiyini və əhalinin sosial-mədəni yaşayış səviyyəsinin yüksəlməsi üçün bütün mümkün tədbirlərin görüldüyü qeyd edərək deyib: "Bu gün "ASAN xidmət" Mərkəzinin tikintisi ilə tanış oldum. Bu da ictimai xidmətlər sahəsində çox önəmli bir təsisatdır və ölkəmizdə hazırda 7 mərkəz tikilir, o cümlədən Naxçıvanda. Onlar istifadəyə veriləndən sonra "ASAN xidmət" mərkəzlərinin sayı 27-yə çatacaq. Ölkəmizdə hazırda DOST mərkəzləri yaradılır. Artıq göstəriş vermişəm ki, Naxçıvanda da DOST Mərkəzi yaradılsın. Bu da sosial təminat və pensiya təminatı sahələrində bizim növbəti uğurlu addımımızdır, milli brendimizdir.

### Naxçıvanın təhlükəsizliyi maksimum səviyyədə təmin olunub

Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin təmin olunması üçün də müxtəlif obyektlər tikilib və tikilməkdə davam edir. Dövlət başçısı bunun çox vacib olduğunu bildirib: "Əlbəttə, Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin təmin edilməsində, hərbçilərin xidmət və məişət şəraitinin yaxşılaşdırılmasında bu obyektlərin böyük önəmi var. Çünki hərbçilərin indi xidmət şəraiti yaxşılaşır, yeni hərbi hissələr tikilir. Son illər ərzində Naxçıvanda demək olar ki, bütün hərbi hissələr yenidən quruldu və olmayan bir çox hissələr yaradılmışdır. Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının açılışı da əlamətdar hadisədir. Çünki bu, Naxçıvan Muxtar Respublikasının ən böyük tibb müəssisəsidir, çarpayıların sayına görə Mərkəzi Xəstəxanadan da böyükdür. Eyni zamanda, hərbi aerodromun açılması Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin təmin edilməsində xüsusi yer tutur.

Ümumiyyətlə, deyə bilərəm ki, Naxçıvanın müdafiə potensialının möhkəmlənməsinə həmişə böyük diqqət göstərilib. Təsadüfi deyil ki, mənim göstərişimlə Naxçıvanda Ümumqoşun Əlahiddə Ordu yaradılmışdır və ordu ən müasir silah və texnika ilə təchiz edilmişdir. Bu gün Naxçıvan ordusunda olan hərbi texnika deyə bilərəm ki, bəlkə də bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiyaya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə Azərbaycan Ordusuna xaricdən gətirilmiş texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur. Əlbəttə ki, Naxçıvan Ümumqoşun Əlahiddə Ordunun döyüş qabiliyyəti də yerindədir və uğurlu Günnüt əməliyyatı - 3 il bundan əvvəl keçirilmiş əməliyyat bunun bariz nümunəsidir. O əməliyyat Ermənistanda hakimiyyət dəyişikliyinə təsadüf etdi, ona görə, hakimiyyətə gəlmiş yeni iqtidar bunu bir növ ört-basdır etməyə çalışdı. Biz də heç üstünü vurmadıq. Çünki bizə hansısa təbliğat yox, real iş lazımdır. Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi. Qarşı tərəf bilir ki, bizim nəzarətimizdə olan bu kommunikasiyalar istənilən vaxt kəsilə bilər və əlbəttə, öz addımlarını buna uyğun atmalıdır".

### Naxçıvan- Avrasiya nəqliyyat dəhlizinə və iqtisadi mərkəzlərdən birinə çevrilir

Kommunikasiyalar məsələsi məlum olduğu kimi, regiondakı yeni reallıqlar müstəvisində son dərəcə vacib bir halqadır. Qarabağın azad edilməsindən sonraskı dövrdə əldə edilmiş razılığa əsasən bölgədə nəqliyyat dəhlizləri bərpa olunmalı və region ölkələrinin iqtisadi-ticari əməkdaşlığı üçün yeni imkanlar açmalıdır. Dövlət başçısı Ordubad dəmir yolu stansiyasında yaradılan şəraitlə tanış olarkən bu məsələlərə də toxundu: "Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan təqribən 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki, açılmalıdır və açılacaqdır... Heç kimdə bu haqda şübhə olmasın. Əlbəttə ki, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək. Bildiyiniz kimi, mən Horadiz-Ağbənd dəmir yolunun təməl daşını qoydum. Burada çatışmayan 15-16 kilometrlik hissə inşa ediləcəkdir, Ordubaddan Ermənistan sərhədinə qədər. Naxçıvan dəmir yolu fəaliyyət göstərir, indi həm sərnişin, həm yük daşımaları həyata keçirilir. Yəni, Azərbaycan ərazisində Horadiz-Ağbənd dəmir yolu tikiləndən sonra bütün infrastruktur yaradılacaqdır.

O ki qaldı Ermənistan ərazisində olan hissəyə, bildiyiniz kimi, Ermənistan dəmir yolları anlayışı yoxdur. Rusiya dəmir yolları bütün Ermənistanın dəmir yollarına sahibdir. Deməli, Ermənistan dəmir yolları ona məxsusdur. Ona görə biz bu məsələni daha çox Rusiya tərəfi ilə müzakirə edirik. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq. Əminəm ki, bu, olacaqdır, məndə heç bir şübhə yoxdur. Bir daha demək istəyirəm ki, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək və əlindən gələni edəcək ki, bu layihənin həyata keçirilməsində heç bir problem olmasın".

Qeyd edək ki, dövlət başçısı NMR-də beynəlxalq aeroportun yeni zolağı, hərbi aerodrom, dəmiryol stansiyası, avtomagstrialla yanaşı həm də, bir sıra istehsal obyektlərinin açılışını da edib. Süni mayalanma mərkəzini, Azərxalçanın filialını, Ordubad SES-ı qeyd etmək olar. Bir sıra layihələr üzrə iş isə davam edir və tezliklə başa çatacaq.

Göründüyü kimi, Azərbaycan Prezidenti ölkənin ümumi strateji iqtisadi inkişafının düzgün təməllərini çoxdan atıb və indi bu iş özünün kulminasiyasına çatıb. Sovet dövründən sonra keçən 30 ildə ölkəmiz faktiki olaraq bir birindən çox aralı olan 2 fərqli hissədən ibarət idi və bu hissələr arasında qurudan birbaşa iqtisadi və kommunikasiya əlaqəsi yox idi. Əlavə vaxt itkisi və əlacə xərclər nəticəsində İran vasitəsilə əlaqə saxlanması mümkün olurdu.

Qarabağın azad olunması Naxçıvanın da blokadadan çıxarılması və onun ölkənin əsas hissəsi ilə birbaşa quru əlaqəsinin təmin edilməsinə səbəb oldu. İndi bərpa olunacaq bu nəqliyyat dəhlizi təkcə ölkəmizin iki əsas hissəsini birləşdirməyəcək, həm də region ölkələrini birləşdirəcək. Zəngəzur nəqliyyat dəhlizi Azərbaycan, Türkiyə, Rusiya, İran və Ermənistan üçün çox faydalı və strateji bir iqtisadi layihədir. Bundan başqa, bu dəhliz Böyük İpək yolunun qollarından birinə çevrilə, Avropa və Asiya arasında yeni bir nəqliyyat xətti rolunu oynaya biləcək.

Ümumiyyətlə, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizin həm siyasi, həm iqtisadi, həm də hərbi müstəvidə çəkisini xeyli artırıb və Azərbaycanı dünyada nüfuz sahibinə çevirib. Zəngəzur nəqliyyat dəhlizi isə bu siyasətin kulminasiya nöqtəsidir ki, bunun strateji əhəmiyyətini geniş və hərtərəfli təhlil etmək bizim yazının imkanları xaricindədir. Amma bunsuz belə yaxın illərdə bu siyasətin ölkəmiz üçün necə böyük imkanlar açacağını indidən görmək olur.

***Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

17 may

# "Beşiktaş" 16-cı çempionluğunu elan etdi!

***Futbol üzrə Türkiyə Super Liqasında 2020-2021 mövsümünün son həftəsində Göztəpəni 2-1 məğlub edərək çempionluğunu elan edən "Beşiktaş"ın futbolçuları, matçdan sonra böyük sevinc yaşayıblar. SİA-nın verdiyi məlumata görə, mövsümün son həftəsinə turnirə "Qalatasaray"la bərabər, 81 xalla girən qara-ağlı komanda, orta hesab üstünlüyü ilə xoşbəxt sona çatmağı bacarıb.***



Göztəpə üzərində qazandığı qələbə ilə xallarını 84-ə yüksəldən "Beşiktaş", çempion olmaq üçün daha çox qol vurması lazım olan "Qalatasaray"ı qabaqlayıb.

Super Liqada ilk çempionluğunu 1959-1960 mövsümündə edən "Beşiktaş", Sergen Yalçın rəhbərliyi altında 16-cı çempionluğuna çatıb

# Messi "Mançester Siti"dən illik 25 milyon avro istəyir!



***İngiltərənin "Mançester Siti" futbol klubu, "Barselona"nın kapitanı Lionel Messini transfer etməkdə israrlıdır. "The Sun" nəşri xəbər verir ki, klub 33 yaşlı hücumçuya görə yüksək məbləğdə pul xərcləməyə hazırdır. Messi isə "şəhərlilər"ə keçəcəyi təqdirdə illik ən az 25 milyon avro maaş ödənilməsini istəyir.***

Argentinalı oyunçu əvvəlcə "Barselona"nın son təklifini müzakirə etməyi, daha sonra digər kluba transfer olunmaq barədə düşünməyi planlaşdırır.

Qeyd edək ki, Messinin Kataloniya klubu ilə müqaviləsi bu yay başa çatır. O, cari mövsümdə 46 matçda 37 qol vurub və 11 qolun ötürməsini verib.

# DİQQƏT: Gecə bu qidaları yeyəndə bütün bədən təmizlənir!

***Yeməklər tərkibindəki minerallar və vitaminlər sayəsində bədənə sağlamlıq yayır. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, bəzi qidalar gecə yeyəndə faydalarını iki qat artıraraq sağlamlığa müsbət təsir göstərirlər. Mütəxəssislər tərəfindən tövsiyə olunan gecə yemək yeyərkən bədəni toksinlərdən təmizləyən qidalar bədəninizi təmizləyəcək və kökəlməyinizə mane olacaq.***

Gecə bu qidaları istehlak etməklə faydalarından daha çox faydalanacaq və qarın düz olacaq. Qidalanma və pəhriz mütəxəssisləri adətən günün müəyyən vaxtlarında yemək vərdişlərindən imtina edilməli olduğunu söyləyirlər.



**Pomidor**

Çox insan pomidoru sevir və bir az zülalı bu qida ilə birləşdirsəniz, sağlam şam yeməyi üçün əla seçiminiz olacaqdır. Pomidorlar antioksidanlarla doludur. Bir çox səbəbdən arıqlamağımıza kömək edir. Həmçinin, pomidor iltihab və maye tutma ilə mübarizə aparır.

**Zeytun yağı**

Sızma zeytun yağı içərisində olan oleik turşusu kimi yağ turşuları, xüsusilə qarın bölgəsində çətin olan yağların parçalanmasına kömək edir. Gecə yatmazdan əvvəl içdiyiniz bir qaşıq zeytun yağı ilə qarın yağını əritməyin mümkün olduğu deyilir.

Ənginar

Qaraciyər sağlamlığı üçün faydalı olan ənginar, axşam yeməyi üçün də əla seçim olacaq. Axı, təsəvvür etdiyiniz kimi, bu orqan gecə boyunca bədəninizi zərərsizləşdirir.

**Qulançar**

Vəhşi və ya ağ qulançarın fərqi yoxdur. İstədiyiniz qədər yeyə bilərsiniz. Çünki bütün bunlar sağlamlığınıza xeyir verəcəkdir. Qulançar vitaminlər (A, B kompleksi, C və E vitaminləri) ilə yanaşı sink və kalium kimi minerallarla doludur.

**Qarpız**

Qarpızlar lif və su ilə dolu olan ən vacib qidalardan biridir. Qarpız yatmadan əvvəl yemək bədəninizdən artıq maye çıxarmaq üçün vacib mineraldır. Bundan əlavə, qarpız immunitet sisteminizlə yaxından əlaqəli olduğu kimi iltihabla mübarizə aparan C vitamini ilə zəngin bir maddədir.

***Ayşən Vəli***

# Depressiyaya düşməmək üçün bu qaydalar mütləqdir



"Depressiya halları əsasən, yaz və payız aylarında olur. Yayda depressiyaya çox nadir hallarda rast gəlinir. Təbii ki, bu, fərdi xüsusiyyət daşıyır. Yəni, hamıya şamil edə bilmərik ki, depressiyaya yay aylarında düşür. Yaz və payız aylarında havalar dəyişdiyi üçün bu hallar daha da artır. Günəşli hava insanların əhvalını yüksəldir. Ümumi statistikaya baxsaq, 10 nəfər yağışlı havanı xoşlayırsa, 25 nəfər də günəşli havanı xoşlayır. Əvvəllər yay depressiyası özünü göstərməsə də, son illərdə bu say artıb. Çimərliklərin və rayonlara gedişin bağlı olması da buna şərait yaratdı. Amma yenə də ümumi götürdükdə yay fəslində depressiya halları o qədər də çox deyil. Ümumilikdə isə, pandemiya, müharibə şəraiti, məktəblərin bağlı olması və s. amillər depressiyaya səbəb olur". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib.

Psixoloq sözlərinə görə, insan depressiyaya düşdüyünü özü hiss edə bilər: "Depressiyaya düşdüyünüzü anlamaq üçün bir sıra hallar var. Özünü gümrah hiss etməmək, heç nədən zövq almamaq, sevdiyi yeməkləri yeyə, bəyəndiyi geyimləri geyinə bilməmək, özünə qulluq etməmək və s. depressiya hallarıdır. Özü ilə bacarmaq üçün etməli olduğu şeyləri həyata keçirməlidir. Əgər şəxs uzun müddət depressiyadadırsa, psixoloji dəstək alması vacibdir".

***Ayşən Vəli***

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600